# BMJ-nin və Səhiyyə Nazirliyinin Klinik Qərara Dəstək Təlim Təşəbbüsü Layihəsi

Britaniya Tibb Jurnalı (BMJ) Azərbaycan Respublikası Səhiyyə Nazirliyi ilə birgə tibb mütəxəssislərinin BMJ Best Practice və BMJ Learning resurslarına çıxışını təmin etməkdən məmnunluq duyur. Bu onlayn resurslar BMJ-nin Klinik Qərara Dəstək Təlim Təşəbbüsü Layihəsi çərçivəsində təklif edilir və həkimlərə sübutlara əsaslanmış məlumatlar əsasında araşdırmalar aparmaq və təcrübələrini təkmilləşdirməkdə kömək etmək məqsədi daşıyır. Saytda 500-ə qədər mövzu Azərbaycan dilinə və 600-ə qədər mövzu rus dilinə tərcümə olunmuşdur.




BMJ artıq 170 ildir ki, fəaliyyət göstərir. Bu gün, dünyada geniş auditoriyası olan qlobal bir brend kimi, BMJ səhiyyə təşkilatları və tibb işçilərinə gündəmdə olan ən kritik səhiyyə problemlərini həll etməkdə kömək edir.

BMJ-nin hər iki onlayn resursu Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Elmi-Tibbi Şurası tərəfindən akkreditasiya edilmişdir və həkimlər bu resurslardan Davamlı Tibbi Təhsil (DTT) kreditləri qazanmaq üçün istifadə edə bilərlər. Həkimlər BMJ Best Practice-dən ildə 5 DTT krediti, BMJ Learning-dən isə 12 DTT krediti qazana bilərlər.

Bu gün Bakı şəhəri və Azərbaycanın 30-dan çox rayon və şəhərlərindən 2500-dən artıq müxtəlif ixtisasda həkim BMJ Best Practice və BMJ Learning resurslarından faydalanırlar. Bu Təşəbbüsə 200-ə yaxın xəstəxana, poliklinika, özəl və tibb tədris müəssisələri qatılmışdır.
Klinik Qərara Dəstək Təlim Təşəbbüsü və BMJ-nin onlayn resursları haqqında daha ətraflı məlumat əldə etmək üçün CDS Portalına keçid alın: [https://cds.bmj.com/az-az/](https://cds.bmj.com/az-az/)

# Nailiyyətlər: “Xəstəlik hadisəsi” məqalələri

Üç “Xəstəlik hadisəsi” məqaləsi ingilis və azərbaycan dillərində nəşr edilmişdir və BMJ-nin CDS saytında dərc olunmuşdur.

1. “BMJ Best Practice və BMJ Learning Azərbaycanda həkimlərə öz bilik və bacarıqlarını təkmilləşdirməkdə kömək edir”; Dr. İradə Axundova; Azərbaycan Respublikası Səhiyyə Nazirliyi, Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutu (2017) *Məqaləyə keçid*
2. “BMJ Best Practice və BMJ Learning-dən istifadə sayəsində vərəmin differensial diaqnostikasının təkmilləşdirilməsi”; Dr. Aysel Aslanova; Azərbaycan Respublikası Səhiyyə Nazirliyi, Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutu (2017) *Məqaləyə keçid*
3. “Kliniki Tibbi Mərkəzdə diaqnostika və müalicə sahəsində təşkilati uğurlar və ünsiyyətin yaxşılaşdırılması”; Dr. Hökümə Məmmədova; Azərbaycan Respublikası Səhiyyə Nazirliyi, Kliniki Tibbi Mərkəz (2018) *Məqaləyə keçid*


BMJ

Klinik Tibb Mərkəzində diaqnostika və müalicə sahəsində təşkilati uğurlar və ünsiyyətin yaxşılaşdırılması

Dr. Hökümə Məmmədova Klinik Tibb Mərkəzində çalışır və Azərbaycan Tibb Universitetində rezidentura təhsilinin 4-cü ilindədir. Digər həkimlər kimi o da laborator və instrumental müayinə çeşidlərinin kifayət qədər olmaması və pasiyent-həkim münasibətlərində qarşıya çıxan bəzi anlaşılmazlıqlar kimi müxtəlif çətinliklərlə üzləşir. Tibbi təhsil sahəsinə gəldikdə isə Azərbaycanda sübutlara əsaslanmış resursların sayı arzuolunan qədər deyil.

Biz Dr. Məmmədovanın BMJ-nin Klinik Qərara Dəstək Təlim Təşəbbüsünə qoşulmasından sonra müşahidə etdiyi dəyişikliklərlə bağlı şərhlərini nəzərinizə çatdırmaq istərdik.

# Nailiyyətlər: Keyfiyyətin Yaxşılaşdırılması (KY) üzrə tədqiqatlar

İki nəfər mütəxəssis Dr. Şeyda Şıxəliyeva ( Respublikanın Taun Əleyhinə Stansiyası) və Dr. Şəhla Quliyeva (Respublika Gigiyena və Epidemiologiya Mərkəzi) keyfiyyətin yaxşılaşdırılması üzrə tədqiqat layihələri təqdim etmiş və BMJ-nin 2018-ci ilin sentyabr ayında Melburnda şəhərində keçirilmiş *Səhiyyə Sahəsində Keyfiyyət və Təhlükəsizlik  üzrə Beynəlxalq Forumda iştirak etmişdlər.* Forumda 85 ölkədən
10 000-ə yaxın nümayəndə iştirak etmişdir. Forum KQD Təşəbbüsünün nəticələrini bölüşmək üçün geniş imkanlar yaradır. Foruma təqdim olunmuş KY üzrə layihələrin mğvzuları aşağıda göstərilmişdir:

- **"Müşahidə göstəricilərindən istifadə etməklə Azərbaycanda Yoluxucu Xəstəliklərin Elektron Müşahidə Sisteminin qiymətləndirilməsi və keyfiyyətinin yaxşılaşdırılması";** 2013-2015, Şəhla Quliyeva, Respublika Gigiyena və Epidemiologiya Mərkəzi; Zlata Rəsulzadə, Respublikanın Taun Əleyhinə Stansiyası; Erik Tonqren FELTP
- **"Respublika Taun Əleyhinə Stansiyada biotəhlükə idarəetmə sisteminin keyfiyyətinin yaxşılaşdırılması";** Şeyda Şıxəliyeva, Rita İsmayılova,  Rakif Abdullayev Respublikanın Taun Əleyhinə Stansiyası.

# Nailiyyətlər: Müsabiqə qalibləri




BMJ tərəfindən həkimlərin diqqətini yoluxucu xəstəliklərlə bağlı mövzulara yönəltmək üçün BMJ Learning üzrə müsabiqə keçirilmişdir. Müsabiqin şərtləri beş mərhələdən ibarət infeksion kursu tamamlamaq və bu kursun faydası haqqında ingilis dilində bəhs edib video çarx hazırlamaq olmuşdur. Həmçinin, BMJ Best Practice-dən də müxtəlif onlayn viktorinalar keçirilmişdir.

**Qaliblər:**

**BMJ Learning üzrə müsabiqə, 2018:** 7 nömrəli Uşaq Yoluxucu Xəstəxanasının baş həkimi Dr. Mehriban İsayeva Amsterdam şəhərində keçirilmiş Səhiyyə Sahəsində Keyfiyyət və Təhlükəsizlik üzrə Beynəlxalq Forumda iştirak etmişdir.

**BMJ Best Practice viktorinası, 2018:** 1 nömrəli Uşaq Yoluxucu Xəstəxanasının həkimi Dr. Vüsalə Quliyeva.

**BMJ Learning üzrə müsabiqə, 2019:** Klinik Tibbi Mərkəzin infeksion xəstəliklər üzrə həkim-rezidenti Dr. Hökümə Məmmədova (hazırda Şabran Mərkəzi Rayon Xəstəxanasında həkim-infeksionist vəzifəsində çalışır) Qlazqo şəhərində keçiriləcək Səhiyyə Sahəsində Keyfiyyət və Təhlükəsizlik üzrə Beynəlxalq Forumda iştirak edəcəkdir.

**BMJ Learning üzrə müsabiqə, 2019:** Bakı Dövlət Universiteti nəzdində 30 nömrəli poliklinikanın otolarinqoloqu Dr. Kəmalə Abbaslı BMJ-nin müsabiqə şurası tərəfindən “Xüsusi Sertifikatla” Təltif edilmişdir.

# Nailiyyətlər: CDS Konfransı

Klinik Qərara Dəstək Təlim Təşəbbüsü Layihəsinin uğurlarını qeyd etmək məqsədilə BMJ və Səhiyyə Nazirliyi İctimai Səhiyyə və İslahatlar Mərkəzində 23 may 2018-ci il tarixində konfrans keçirmişdir. Konfransa KQD Təşəbbüsünün  həyata keçirilməsi nəticəsində əldə edilən ilkin nailiyyətlər haqqında məlumat verilmiş və BMJ Təbliğatçıları və təşəbbüsün aktiv iştirakçıları sertifikatlarla təltif edilmişdir. Tədbirdə beynəlxalq təşkilatlar, əczaçılıq şirkətləri, Həkimləri Təkmilləşdirmə İnstitutu və digər qurumların məsul nümayəndələri, həmçinin BMJ resurslarının təbliğatçıları və istifadəçiləri iştirak etmişlər.





# Nailiyyətlər: BMJ istifadəçiləri üçün Facebook qrupu yaradılmışdır

Azərbaycan üzrə BMJ istifadəçiləri üçün facebook qrupu yaradılmışdır. 500-ə yaxın həkim artıq qrupa üzv olmuşdur. Qrupda BMJ-nin onlayn resursları olan BMJ Best Practice və BMJ Learning-ə dair video təlimatlar və müxtəlif yazılı təlimatlar yerləşdirilmişdir. Həmçinin, qrupda mütəmadi olaraq KQD Təlim Təşəbbüsü Layihəsi ilə bağlı yeniliklər, elanlar, tədbirlərlə bağlı məlumatlar və  xəstəlik hadisələri ilə həkimlərlə bölüşülür. Facebook qrupunun ünvanı: [https://www.facebook.com/groups/335564347204700/](https://www.facebook.com/groups/335564347204700/)

